**10.05.2024г.2 «е» курс. Metodika.**

**Mövzu: 4-cü sinifdə felin təlimi-məsdərin təlimi.**

4-cü sinifdə fel daha ərtaflı keçilir. Hansı mövzular əhatə olunur? 1.Fel haqqında məlumat.2. Məsdər.3. Felin zamanları.4. Felin quruluşca növləri.5.Təsdiq və inkar fellər.Məsdər nədir, hansı şəkilçilərlə düzəlir,isim kimi hallanır,nə etmək, nə olmaq və nə sualına cavab verməsini öyrədirik. İki məsdər götürürük və onları lövhədə hallandırırıq.Məs:

*Adlıq oxumaq, gülmək*

*Yiyəlik oxumağın, gülməyin*

*Yönlük oxumağa, gülməyə*

*Təsirlik oxumağı, gülməyi*

*Yerlik oxumaqda, gülməkdə*

*Çıxışlıq oxumaqdan, gülməkdən*

Şagirdlər də dəftərlərinə yazdıqdan sonra sinfə sual veririk. M:- Uşaqlar, bu üç hala baxın, Yiyəlik,Yönlük və Təsirlik hallarda "q" dönüb "ğ" oldu, "k" dönüb "y" oldu- niyə?

Cavab:- Bu üç halda "q"və "k" iki saitin arasında qalır, ona görə dəyişir, yumşalır və "q" "ğ"-ya çevrilir,"k " da "y" olur.M: -Düzdü, Bəs, Yerlik və Çıxışlıq hallarda niyə bu dəyişiklik olmadı?

Cavab: - Yerlik və Çıxışlıq hallarda bu səslər iki saitin arasında qalmır, yalnız bir tərəfində sait səs var. Şagirdlər bunu başa düşdükdən sonra onlara tapşırıq veririk,onları başqa məsdərlər üzərində işlədirik. Həm lövhədə, həm də yerlərində işləyirlər.

Nə öyrətmirik: Məsdərin isim kimi mənsubiyyə görə dəyişməsini öyrətmirik,(mənim oxumağım,sənin oxumağın və s.) çünki ismin mənsubiyyətə görə dəyiçməsini 5-ci sinifdə keçəcəklər.Təsirli və təsirsiz fellər, aktiv və passiv fellər, felin formaları, yalnız xəbər formasına aid olan zamanları öyrədirik. Fel formalarının mürəkkəbi, feli sifət, feli bağlama öyrətmirik. Əsas məqsəq şagirdlərə fel haqqında bəsit biliklər verməkdir.Sagird bilməlidir ki, bu necə nitq hissəsidir, sualları, zamanları və s. öyrənməlidir.

**Çalışma.** Danışmaq, bilmək məsdərlərini hallandırın.